**Azərbaycan Respublikası Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu Müşahidə Şurasının tərkibində dəyişiklik edilməsi haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**

Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Azərbaycan Respublikası Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 23 dekabr tarixli, 196 nömrəli qərarında dəyişiklik edilərək, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Namiq Həsən oğlu Həsənov tutduğu vəzifədən azad olunduğuna görə, Müşahidə Şurasının üzvlüyündən çıxarılsın, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Şəmsədin Hüseynqulu oğlu Xanbabayev Müşahidə Şurasının üzvlüyünə daxil edilsin.

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

**Bakı şəhəri, 10 iyul 2000-ci il**
**№ 115**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2999.**